

# RƏŞAD BALAKƏNLİ

**MƏNİM VƏTƏNİM**

Özünə bəzəkdir öz gözəlliyi,
Çəmən yaraşığı, düz gözəlliyi;
Geridə qoyubdur yüz gözəlliyi,
Əzəldən cənnətdir mənim Vətənim!

Təbrizdən boylanıb Dərbəndə bax bir,
Kürdə haray çəkib Arazda ax bir;
Oyat tariximi, sinənə sıx bir,
Gör necə qüdrətdir mənim Vətənim!

Naxçıvan-Borçalı bir qoşa qanad,
Könlümdə təpərdir, ruhumda inad;
Türkəm, türklüyümdə tapmışam həyat,
Bir şirin nemətdir mənim Vətənim!

Gözəl Qarabağda muğamı dinlə,
Tara qulaq kəsil, kamanı dinlə;
Bayatı haraylı məqamı dinlə,
İlahi sərvətdir mənim Vətənim!

Səslə şəhidləri, ruhları gülsün,
Qazilər yığışıb yanına gəlsin;
Qoy dünya təzədən tanısın, bilsin,
Bir dərin heyrətdir mənim Vətənim!

Yanır taleyimdə haqqın çırağı,
Dinir varlığımda Zəfər sorağı;
Qanla suvarmışam ana torpağı,
Şərəfdir, şöhrətdir mənim Vətənim!

**ƏHSƏN, DÜNYA**

Ömür verib yaş qazandıq,
Ruhu verib “kaş” qazandıq -
Cismi verib daş qazandıq,
Dərk etmirəm nəsən, dünya.

Ömür yolu eniş, yoxuş,
Görmədim bir zərrə naxış –
Əyri yola çoxdu axış,
Nahaq yana əsən dünya.

İstisi pis, soyoğu pis,
İnsanlar var içi iblis -
Satılırsa rüşvətə hiss,
Məsləyinə əhsən, dünya.

Kimisi var-dövlət yığır,
Kimi güclə çörək tapır -
Düzələcək əvvəl-axır
Ədalətdən küsən dünya.

Şərt deyil ki, neçə yaşa
Şərt odur ki, necə yaşa -
Ömrü vermə heçə, yaşa,
Var ömürdən kəsən dünya.

Allahadır ən doğru yol,
Yalandı sağ, yalandı sol -
Düzgün əməl sahibi ol,
Sıxar haram yesən dünya.

Gir sandığa, bürün şala,
Görmədim vaxt çatıb qala -
Baxmaz pula, baxmaz hala
Pulum çoxdu desən dünya.

Rəşad, nədi coşdun yenə?
Sözlə aşıb-daşdı sinə -
Adi, fani gələr sənə
Puçluğunu bilsən dünya...

## XƏYALINLA MƏN

Yenə xəyalınla görüşə gəldim,
Cismindən xəyalın vəfalı imiş.
Baş qoyub dizinə, xeyli dincəldim,
O süzgün baxışın şəfalı imiş.

Sənə bir sualım olacaq mənim
Soruşma, sualın qəliz deyil ki?
Gözlərin çox valeh eyləyir məni,
Hərəsi birümman, dəniz deyil ki?

Baş-başa qaldıqca xəyalınla mən
Dağıldı könlümün dərdi, kədəri.
Xəyalındı hər dəm görüşə gələn
Cisminin, bəlkə də, yoxdu xəbəri.

Sənli xatirələr yaşadır məni,
Xəyalın bir başqa, özün bir başqa.
Arayıb axtarsam, tapsam da səni,
Addımın bir başqa, sözün bir başqa.

Görüş yerimizdir dəniz kənarı,
Orda görüşürəm xəyalınla mən.
Canlanır gözümdə qəlb arzuları,
Saçların küləkdən dağılan, əsən...

Dəniz kənarına yazım adını,
Yuyan ləpələrə qısqanım səni.
Xəyalən çıxarıb eşqin dadını,
Əl-ələ gəzişək çölü, çəməni.

Dənizin küləyi üşüdər səni,
Gəl sarıl boynuma, eşqimə isin.
Bassa da həyacan, soyuq tər səni
Qalsın ürəyimdə silinməz izin.

Dolana bilmirəm daha azadə,
Məni məhbus edib eşqin qəfəsi.
Xəstəyəm, bir təbib çağırın dadə,
Dedilər: "Dərmanın canan nəfəsi..."

O qaşın, o gözün vurğunu oldum,
Əsdirir küləklər telini bir-bir.
Yanağına bir xal əvəzi qondum,
Xəyalın eylədi Rəşadı şair...

## ÇIXAR GEDƏR

İnsan oğlu, çox da vara inanma,
Rüzgar əsər, əldən var çıxar gedər.
Ensə dağ başından çökək dərəyə,
Ağac da saxlamaz bar, çıxar gedər.

Məsəl var: "Üstündür qardaşdan qarın",
Yeyib-içməkdəsən, var dövlət-varın;
Yığılır başına hər gün dostların,
Kasıblasan edib ar çıxar gedər.

Bəyənsən, çox gözəl pəri alarsan,
Pulun var, çox şeyə nail olarsan;
Kasıblasan, bil ki, tənha qalarsan,
Atar səni həmən yar, çıxar gedər...

## ÖZÜMÜ QAYTAR GERİ

Səni ilk gördüyümdən, özümdə deyiləm mən,
Nə gülşəndə rahatam, nə də xoş gəlir çəmən,
Hara baxsam gözümün önündə görünürsən -
O əvvəlki baxışı, gözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Eşqinə düşən gündən cəmləyib diqqətimi,
Toparlaya bilmirəm özümdə taqətimi,
Ya sev, ya geri qaytar ülvi məhəbbətimim -
O alovlu eşqimi, közümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Özüm də məəttələm düşdüyüm bu günümə,
Səndən əvvəl dözərdim, min əzaba, zülmə,
İndi dözə bilmirəm sənin sənsizliyinə -
Canımdakı əvvəlki dözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Məni sənə aparır addımım da, yolum da,
Ürəyim çoxdan sənin, gəzmə, yoxdu solumda,
Eşq dolu həyəcandan güc qalmayıb qolumda -
Dilimdə söz büdrəyir, sözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Mən özümdə deyiləm, özlüyümdən qopmuşam,
Sənin xoş xəyalınla xatirənə hopmuşam,
Vüsalına can atıb xəyalını tapmışam -
Müəmmaya cavab ver, çözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...